# Qəbələdə «Gənc xilasedici və yanğınsöndürən» adlı respublika birinciliyi və beynəlxalq turnir keçirilmişdir

İyulun 7-də Fövqəladə Hallar Nazirliyinin Qəbələdə yerləşən "N" saylı hərbi hissəsində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş "Gənc xilasedici və yanğınsöndürən" adlı respublika birinciliyi və beynəlxalq turnir başa çatmışdır.

**AzərTAc xəbər verir ki,** Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilən yarışın bağlanış mərasimində fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, təhsil naziri Mikayıl Cabbarov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov iştirak etmişlər.

Əvvəlcə qonaqlar yarışın keçirildiyi çadır düşərgəsində bütün komandaların üzvləri ilə görüş keçirərək onların geyimi, fiziki və taktiki hazırlığı və qidalanması üçün yaradılmış şəraitlə tanış olmuş, xilasedici və yanğından mühafizə komandalarının fövqəladə hallara hazırlıq vəziyyəti, onların təlimləri, müxtəlif texnikalardan istifadə etmək bacarıqları ilə maraqlanmışlar.

Komandalar şərti olaraq yük avtomobilində və yaşayış evində baş verən yanğının söndürülməsi əməliyyatını uğurla başa vurmuş, qısa vaxt ərzində yanğını dəf etməklə insanları müxtəlif vasitələrin köməyi ilə xilas etmişlər.





Qəbələ Mədəniyyət Mərkəzində keçirilən komandaların mükafatlandırılması mərasimində çıxış edənlər bildirmişlər ki, bu yarışın əsas məqsədi yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və gənc nəslə hərbi-vətənpərvərlik ruhunun aşılanması, sağlam həyat tərzinin təbliğindən ibarətdir. Yeniyetmə və gənclər bu yarış vasitəsilə fövqəladə hallar zamanı necə davranmaq qaydalarını öyrənirlər və onlarda bu sahəyə böyük maraq yaranır.



Qeyd edilmişdir ki, ölkəmizin müxtəlif bölgələrində keçirilmiş zona yarışlarında yüksək yer tutan komandalar finala vəsiqə qazanmışlar. Bu yarışın iştirakçısı olan 18 şəhər və rayonun komandası, eləcə də Azərbaycan, Rusiya, Qazaxıstan, Polşa, Belarus və ABŞ-dan olan təmsilçilər beş mərhələdə - "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Gənc ekspertlər" üzrə birincilik uğrunda mübarizə aparmışlar.

Beynəlxalq yarışda Azərbaycan komandası birinci, Belarus təmsilçiləri ikinci, Qazaxıstan xilasedicilər üçüncü yeri tutmuşlar.

Mərasimdə komandalara kubok və hədiyyələr təqdim olunmuşdur.

Tədbir konsert proqramı ilə davam etdirilmişdir.

**Fotolar S. Umuyevindir.**

## Kəmaləddin HEYDƏROV: «Gənc xilasedici və yanğınsöndürən» turniri ölkəmiz üçün maraqlı, həyat üçün vacib olan yarışdır



Yarışlarda 6 ölkənin komandası iştirak edirdi. Bu oyunların ölkələr arasında keçirilməsinin məqsədi gənclər arasında dostluq əlaqələri qurmaqdır. Fövqəladə Hallar Nazirliyinin məqsədi isə ondan ibarətdir ki, ölkəmizin gəncləri gələcəkdə təbii və texnogen fəlakətlər zamanı öz təhlükəsizliklərini necə qorumağı öyrənsinlər.

AzərTAc xəbər verir ki, bu sözləri Qəbələdə keçirilən "Gənc xilasedici və yanğınsöndürən" adlı respublika birinciliyi və beynəlxalq turniri izləyən fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov jurnalistlərə müsahibəsində demişdir.

K.Heydərov ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr edilmiş beynəlxalq yarışın əhəmiyyəti barədə danışarkən bildirmişdir ki, dünyanın bir çox ölkəsində belə yarışlar keçirilir. Azərbaycan komandaları gələcəkdə digər beynəlxalq turnirlərdə də iştirak edəcəklər. Bu, ölkəmiz üçün maraqlı, həyat üçün vacib olan yarışdır. Builki oyunlar ötən il keçirilən oyunlardan ilk növbədə miqyasına görə fərqlənirdi. Digər tərəfdən, ötən il texnikalardan istifadə edənlər nazirliyin əməkdaşları idilərsə, bu il bütün texnikalardan gənclər özləri istifadə edirdilər. Bu oyunlarda iştirak edən gənclər öz evlərində, yaxın ərazilərdə hansısa hadisə baş verdikdə burada topladıqları biliklərdən, təcrübələrdən istifadə edərək prosesə daha yaxşı, professional şəkildə müdaxilə edə bilərlər. Bu oyunlarda gənclərin keyfiyyətli iştirakı da yeniliklərdən idi.

Qarabağın cənnət məkanı Ağdamın işğalından 20 il keçir. 1993-cü ildə Azərbaycanda baş verən siyasi böhrandan istifadə edən erməni təcavüzkarları yeni hücum əməliyyatına başlayaraq Ağdam rayonunun bir neçə kəndini işğal etdi. O, cümlədən Ağdamın Qarsayda şəhid verən, ən ağır mənəvi məhrumiyyətlərə məruz qalan ağdamlılara bu işğal 8 milyard dollar həcmində ziyan vurdu. 124 yaşayış məntəqəsindən 80-ni itirən Ağdam bu gün də azğın düşmənlə üz-üzə, göz-gözə bir şəraitdə yaşayır və inkişaf edir. Rayonun iş-

*Ağdamın işğalından 20 il keçir*

## Ağdamlılar ümidlə, inamla yaşayırlar

qarayı, Saybalı kəndlərinin ərazisi işğal olundu. Malıbəyli kəndində güclü döyüşlər gedirdi. Cəbhəyə heç bir köməklik göstərilmirdi. Yalnız cəbhə yerli özünümüdafiə batalyonlarının ümidinə qalmışdı. Amma "Fred" ləqəbli Asif Məhərrəmovun müdafiə batalyonlarının döyüşçüləri bütün günü və gecəni düşmənlə cəsarətlə döyüşdülər. Lakin kömək gəlmədiyi üçün geri çəkildilər. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. Ağdam rayonunun ərazisinin 77.4 faizi artıq 20 ildir ki, Ermənistanın işğalı altındadır. Çox ğalından sonra respublikanın 60 şəhər və rayonuna səpələnmiş ağdamlılar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuş, çadır düşərgələrinin məşəqqətlərindən qurtulub hər cür infrastruktura malik yeni qəsəbələrdə rahat mənzillərə qovuşmuşdu. Ağdamlılar ümidlə, inamla erməni cəlladlarından qisas alacaqları günü gözləyirlər. Bu yenilməz ümidi, bu sarsılmaz inamı ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi müdrik və uzaqgörən siyasət doğurur.

**"Qəbələ".**